*Kult.e.d. prof.* **Abdullayev Çingiz**
*Alman-Azərbaycan Cəmiyyətinin sədri*
*Bakı Slavyan Universiteti*

# ALMANİYADA CÜMHURİYYƏT ARZUSU

**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, fikir azadlığı, multikulturalizm, azərbaycanlı mühacirlər.
**Keywords:** Azerbaijan Democratic Republic, freedom of thought, multiculturalism, Azerbaijani emigrants.
**Ключевые слова:** Азербайджанская Народная Республика, свобода мысли, мультикультурализм, азербайджанские эмигранты.

Azərbaycan Xalq Cümhuriyyətinin keçirilən 100 illik yubileyi hər bir Azərbaycan vətəndaşının qürurudur. Babalarımız tərəfindən ərsəyə gələn bu tarixi hadisə hər bir xalqın arzusudur. Vaxtilə çar Rusiyasının müxtəlif şəhərlərində, o cümlədən Qori Seminariyasında, Osmanlı imperiyasında, Almaniya və Avropanın digər ölkələrində təhsil alan gənclərimiz XX əsrin əvvəllərində öz fikir azadlığı və cümhuriyyət arzularını həyata keçirmək əzmində olmuşdular. Azərbaycanın maarifçi – demokratlarından olan M.F.Axundovun bədii – dramaturgiya nümunələri, Həsən bəy Zərdabinin Azərbaycan mətbuatına verdiyi töhfələr və nəhayət Üzeyir bəy Hacıbəylinin musiqi yaradıcılığının unudulmaz əsərləri cəmiyyətin maariflənməsində özünəməxsus yer tutmuşlar. XX əsrin əvvəllərində cərəyan edən sosial-iqtisadi proseslər, "neft bumu" Bakının Rusiya imperiyasınını aparıcı sənaye şəhərinə çevrilməsində mühüm rol oynamışdır. XIX əsrin sonlarında Bakıda çalışan Rotşildlər, Nobellər, Siemenslər heç düşünmürdülər ki, Azərbaycan xalqının layiqli övaldlarının qısa bir zaman kəsiyində Tiflisdə, Gəncədə və Bakıda apardıqları ictimai-siyasi fəallıq sonda Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə nəticələnəcəkdir. Əlbəttə bu uğurun kökündə elm və təhsillə yanaşı, o dövrkü azərbaycanlı neft sahibkarlarının məqsədyönlü şəkildə apardıqları işgüzarlıq fəaliyyəti də öz müsbət təsirini göstərmişdi. Bu dövrdə sənaye ilə yanaşı, Bakının mərkəzində və ətraf qəsəbələrində aparılan tikinti-quruculuq işləri xalqın gələcəyə ümidli olmasına bir əsas verirdi. Kapitalist Bakısında əsasən Almaniya, Polşa, Fransa, İtaliyadan gələn memarların layihələri ilə tikilən sənət nümunələri bu gün də öz yaraşığı ilə insanları heyrətləndirir. O dövrdə Bakıda işləyib və yaşayan müxtəlif ölkə vətəndaşları Azərbaycandakı multikultural mühitə uyğunlaşaraq Bakı sakininə çevrilmiş və bu gün də onların nəsillərinin davamçıları ölkəmizdə yaşamaqdadırlar. XIX – XX əsrlərdə Bakıda inşa olunmuş Alman Lüteran kilsəsi, Rus Provaslav kilsəsi, Katolik kilsəsi müsəlman məscidlər ilə yanaşı fəaliyyət göstərmiş, insanların ibadət yerlərinə çevrilmişdir. Araşdırdığımız dövrə kulturoloji aspektdən nəzər saldıqda görürük ki, XX əsrin əvvəllərində Şərq və Qərbin qovşağında yerləşən Bakı şəhəri öz tolerantlıq mühiti ilə cəmiyyəti heyran etmişdir. Məhz bu ərəfədə cərəyan edən hadisələr gərgin keçsə də, çoxmillətli demokratik parlamentin 1918-ci ildə qələbəsi ilə yekunlaşmışdır.

XX əsrin əvvəllərində Azərbaycandakı multikultural mühit gənclərin Şərqdən Qərbə təhsil almaları ilə yekunlaşmışdır. Belə ki, 100-ə yaxın tələbənin Avropada təhsil almaları işıqlı gələcəyə doğru atılan mühim addımlardan biri idi. Xüsusən, Almaniyada təhsil alan gənclərin taleyi haqqında yazılan müxtəlif məqalə və kitablar bu gün də maraqla izlənməkdədir. Nümunə üçün deyə bilərik ki, belə tələbələrdən olan Qəhrəman Məmmədov Almaniyada iki ali təhsil alaraq Vətənə dönmüş və Azərbaycan Memarlar İttifaqının yaranması ideyasını həyata keçirmişdir. Digər tələbələr də cümhuriyyətin süquta uğramasından sonra da təhsillərini davam etdirmişlər. Çətinliklə üzləşən tələbələrin bir qismi Vətənə dönmüş, digərləri isə Avropanın müxtəlif şəhərlərində işləməyə üstünlük vermişlər. Sovetlər quruluşunun təhlükəsini hiss edənlər isə öz bilik və bacarıqlarını xaricdə reallaşdırmışdırlar. Bu mövzuda araşdırıcılar Teyyub Qurban və Ədalət Tahirzadə öz məqalə və kitablarında ətraflı məlumat vermişlər. Onu da qeyd etmək yerinə düşərdi ki, məhz Almaniyada təhsil alan tələbələr Azərbaycan Xalq Cümhuriyyəti süquta uğrayandan sonra çətinliklərlə üzləşəndə Helenendorflu (Göygöl) alman iş adamları Forer və Hummel qardaşları onlara qismən də olsa bir yerli kimi köməkliklərini əsirgəməmişlər. Əlbəttə bu humanist addım daim yaddaşlarda qalaraq Azərbaycanın multikultural mühitinin elementlərini özündə əks etdirir.

Dövlət quruculuğu prosesində ölkənin qərb bölgəsində məskunlaşmış alman kolonistlər öz fəallıqları ilə seçilmişdilər. Azərbaycan Xalq Cümhuriyyəti parlamentində (Göygöl) koloniyasını təmsil edən Lorents Kun aqrar komissiyanın tərkibinə daxil edilmişdi. Heç təsadüf deyil ki, alman kolonistlərin Azərbaycanda məskunlaşmalarının 100 illiyi münasibəti ilə 1919-cu ildə keçirilən yubiley tədbirinə Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri Ə.Ağayevin təbrik məktubu ünvanlanmışdır.

Romanovlar sülaləsinin devrilməsi ərəfəsində Bakı Dumasının və Hacı Zeynalabdin Tağıyevin dəstəyi ilə Almaniyadan gəlmiş ingilis əsilli mühəndis ser Vilyams Herlen Lindley tərəfindən Bakıya şimal zonadan çəkilən içməli su xətti 1917-ci ilin mart ayında Novruz bayramında Bakı sakinlərini sevindirmişdi. Azərbaycan Xalq Cümhuriyyəti tarixinin 100 illiyi ərəfəsində Şollar Bakı Su Kəmərinin də 100 illiyinin qeyd olunması müasir dövrdə əlamətdar hadisəyə verilən dəyərlərdəndir. Məhz su xəttinin açılışının Cümhuriyyətin qurulması ərəfəsində ərsəyə gəlməsi də düşərli olmuşdur.

"Şollar-Bakı Su Qurğuları Kompleksinin" 100 illik yubiley mərasiminin ilk günü Tarix Muzeyində Z.Tağıyevin Ev Muzeyində təşkil olunmuşdur. Tədbirdə qonaqları salamlayan ev sahibi akademik Nailə Vəlixanlı sonra sözü AMEA-nın vitse prezidenti, millət vəkili, akademik İsa Həbibbəyliyə verdi. O, çıxışında əlamətdar hadisənin "Azərsu" ASC tərəfindən hazırlanan həftəlik su bayramı proqramına ehtiramını bildirdi. Sonra 100 illik yubiley münasibəti ilə çıxış üçün söz "Azərsu" ASC-nin sədri cənab Qorxmaz Hüseynova verildi. O, dəvətə görə təşəkkürünü bildirərək mövzu ilə bağlı əhatəli çıxış edərək "Azərsu" ASC adından 100 illik şərəfə hazırlanan xatirə tablosunu Z.Tağıyevin Ev Muzeyinə, V.Lindleyin və Z.Tağıyevin nəticələrinə təqdim etdi. Təşəkkür üçün V.Lindleyin mərasimdə iştirak edən nəticəsi Eugen Deubner və Z.Tağıyevin nəticəsi Kamilla Abdullayeva söz alaraq bu tarixi görüşlə bağlı öz hislərini salonda əyləşənlərlə paylaşdılar. Zamanında babalarının dostluğu anılaraq nəticələrin mehriban görüşü ilə sonuclanan xatirə şəkli də çəkildi.

Sovet inqilabı ərəfəsində Bakını tərk edən gənclərdən biri də sonralar yazıçı kimi məşhurluq qazanmış Məhəmməd Əsəd Bəyin 1929-cu ildə Almaniyada nəşr etdirdiyi "Şərqdə neft və qan" kitabında XX əsrin əvvəllərində baş verən hadisələri ustalıqla qələmə alınmış, mütəmadi olaraq Berlində "Literatur Haus" yaradıcılıq evində Qafqaz, əsasən də Azərbaycan gerçəkliklərini Alman cəmiyyətinə olduğu kimi çatdırmışdı. Azərbaycan mühitini, tarixini, mədəniyyətini və ədəbiyyatını qələmə alan M.Əsəd bəy dövrünün zəkalı vətəndaşı kimi Azərbaycanın beynəlxalq aləmdə tanınmasında danılmaz xidməti olmuşdur. Onun "Əli və Nino" əsəri isə qısa müddət kəsiyində dünyada məşhur olaraq 33 dildə nəşr olunmuşdur. Oskaq mükafatçısı Heptonun ssenarisi ilə lentə alınan filmdəki süjet xətti isə cümhuriyyət dövrünü maraqla canlandırmışdır.

Əlbəttə əsasən Berlin, Paris və Varşavada məşhurlaşan azərbaycanlı mühacirlərdən Hilal Münsinin 1930-cu il Berlində nəşr etdiyi "Die Aserbaidschanische Republik" kitabında da bir çox tarixi və siyasi məqamlardan söz açılır. Məhəmməd Əmin Rəsulzadə " Das Problem Aserbaidschan" 1937-ci ildə nəşr olunan kitabında isə əsasən Azərbaycan SSR-də olan problemlərdən və bu problemlərin gələcəkdə həllindən söz açmışdır. Xarici ölkələrdə ağır şərtlər altında həyatlarını yaşayan Əlimərdan bəy Topçubaşov, Ceyhun bəy Hacıbəyli, Məhəmməd Əmin Rəsulzadə və digərləri davamlı olaraq məktublaşmış və müxtəlif mərasimlərdə çıxış etməklə təsəlli taparaq ömürlərini mühacirətdə keçirmişlər.

Cümhuriyyət eşqi ilə Avropada yaşayan mühacirlərimiz ömürlərinin sonuna kimi mücadilə apararaq Azərbaycanın müstəqilliyi uğrunda durmadan çalışmışlar. Bu baxımdan Almaniyanın Münxen şəhərində yaşamış filoloq Məcid Musazadənin üçrəngli bayrağı daim özü ilə gəzdirməsi onun müstəqillik yolundakı arzuları ilə bağlı idi.

M.Musazadə əvvəlcə Berlindəki Azərbaycan "İrtibat qərargahı"nda, sonra isə Məhəmməd Əmin Rəsulzadənin mənəvi rəhbərliyi ilə nəşrə başlayan "Azərbaycan" qəzetinin baş redaktoru vəzifələrində 1945-ci ilə qədər çalışmışdır. Müharibədən sonra o, Münhen şəhərində yaşamış, "Azadlıq" radiosunun Azərbaycan şöbəsində fasiləsiz 26 il işləmiş, müxtəlif illərdə şöbənin baş redaktoru olmuşdur. Peşə imkanlarından istifadə edərək həmişə xalqımızın ədəbiyyatını, tarixini, adət-ənənələrini fəal təbliğ etmişdir.

1990-cı il mayın 28-də Kayseri şəhərində "Türk Dünyası Araşdırma Vəqfinin" təşkil etdiyi





Birinci Azərbaycan Toplantısında nümayəndə heyətinə yaxınlaşaraq 40 il özü ilə gəzdirdiyi və Avropa ölkələrinin yüksək məclislərini bəzəmiş üçrəngli, ayparalı və səkkizgüşə ulduzlu milli bayrağımızı Azərbaycana bağışlamaq arzusunda olduğunu bildirmişdir. Lakin amansız ölüm onun bu müqəddəs arzusunu həyata keçirməyə imkan vermədi. Qəlbi həmişə vətən həsrəti ilə döyünən M. Musazadə 1990-cı il iyulun 17-də 76 yaşında vəfat etdi. Dostları onu iyulun 20-də vətəndən çox-çox uzaqlarda - Münhendə Nordfriedxof adlanan yerdə torpağa tapşırdılar.

Məcid Musazadə Avropa ölkələrində Romeo və Cülyetta kimi məhşurlaşan "Əli və Nino" romanını 1972-ci ildə almancadan azərbaycancaya çevirmişdir. Eyni zamanda o, Qarabağ hadisələri ilə bağlı Azərbaycanın haqq işini müdafiə edən onlarla tarixi-publisist məqalə yazıb çap etdirmişdir. Onun "Qarabağın zəngin tarixinə dair" sərlövhəli məqaləsi də bu qəbildəndir.

Ayrı-ayrılıqda Almaniyada Türküstan Legionunun başçısı olmuş özbək əsilli Baymirza Həyati və alman əsilli şərqşünas aiim Əhməd Horst Şmiede də azərbaycançılıq ideyalarını hər zaman uca tutaraq soydaşlarımıza dostok olmuşlar.

Müasir dövrümüzdə vətən eşqi ilə yaşayan digər həmyerlimiz Əhməd Omid Yazdaninin Almaniyada nəşr olunmuş "Bölünmüş Azərbaycan" kitabı da Almaniya cəmiyyətində maraqla oxunmuşdur.

Bu gün müxtəlif dərgilərdə və TV-də Azərbaycanın adını uca tutan yazı və çıxışları ilə seçilən sevgili yazarımız Orxan Arasın Köln şəhərindəki fəaliyyəti də danılmazdır.

Müasir dövrümüzdə Azərbaycan Xalq Cümhuriyyəti tarixini daim öz qəlbində yaşadan uzun illər Parisdə UNESCO-nun iqamətgahında çalışmış Ramiz Abutalıbovun tövsiyyəsi və Arzu Əliyevanın dəstəyi ilə ərsəyə gələn "Əbədi ezamiyyət" sənədli filmi dramatik janrda cümhuriyyətçilərin Avropa həyatını əks etdirmişdir.

Ermənilərin Qarabağ iddiası ilə törətdikləri əməllərin nəticəsi olaraq müasir dövrdə izdihamlı mitinqlərin qarşısını almaq üçün 1990-cı ilin 20 yanvarında Bakıya yürüdülən Sovet qoşunları dəhşətli qanlı hadisəni törədərək insanları qırmışlar. Bu dəhşətli hadisə ərəfəsində beynəlxalq aləmə səs salan azərbaycanlı soydaşlarımız müxtəlif səpkili müraciətlər ünvanlayaraq Bonnda SSRİ səfirliyinin önündə mitinq və yürüş keçirmişlər. Bu hadisələrlə bağlı müraciət olunan sənədlərin qısa xülasəsini təqdim edirəm. 1990-cı il 20 yanvar hadisəsi gecəsi Kölndən hörmətli şairimiz Bəxtiyar Vahabzadənin beynəlxalq aləmə müraciətindən sonra türklər daha da fəal oldular. Hörmətli doktor Həsən Qərəvinin rəhbərliyilə müxtəlif bəyanatlar qəbul olundu. Belə ki, 1990-cı ilin 20 yanvar hadisəsindən sonra xaricdə, əsasən də Almaniyada başladığımız işlərin nəticələri göz qabağındadır. AFR-da yaşayan azərbayanlılar, mənşəyindən asılı olmayaraq, bir yumruq kimi birləşib Azərbaycanın müstəqilliyi yolunda əllərindən gələni etmişlər. Bunun bariz nümunələrindən biri ***10.01.90-cı ildə, bir qrup azərbaycanlı həkimlər tərəfindən*** Almaniyadan yazılan etiraz məktubları ilə əlaqəli bəzi iqtibasları təqdim edirəm.

***1. Surəti SSRİ səfirliyinə, prezident Corc Buşa, ABŞ səfirliyinə, cənab Peres de Kuelyara, Xarici İşlər Naziri Genşerə, Bakıdakı Vətən cəmiyyətinə.***

***2. 27.01.1990 – Moskva, Cənab Qorbaçova. Sov. İKP-nin Baş katibinə.***

***3.27.01.1990 – Bütün insanlara və insan hüquqlarının bütün müdafiəçilərinə!***

***4. 27.01.1990 – Sovet qoşunları təcili olaraq Azərbaycandan çıxarılsın.***

Bu hadisədən sonra 1990-cı ilin mayında Kölndə "Azərbaycan Kültür Cəmiyyəti" yaradıldı. Daha sonra Türkiyədə, İngiltərədə, ABŞ və digər ölkələrdə cəmiyyətlərin yaranma prosesləri başladı. Daha əvvəl İranda professor Cavad Heyət "Varlıq" jurnalında məqalələr çap elətdirir, Ankarada Azərbaycan kültür Dərnəyində toplantı və tezisləri yayımlanır, Türkiyədə Nihat bəy Çətinqaya isə İstanbulda keçirilməli olan Azərbaycan lobbisi ilə bağlı xaricdə yaranmış cəmiyyətlərin üzvlərinin iştirakı ilə böyük konqres və yürüşü təşkil edir.

Bu aksiyaların biri də o vaxt Münhendə yaşayan "Azərbaycan Milli Birliyi"nin təsisçisi Məcid Musazadə tərəfindən aparılmışdı. O, 1990-cı il yanvarın 24-də Birləşmiş Millətlər təşkilatının Baş Katibi Peres de Kuelyara və Türkiyənin prezidenti Turqut Özala imperiya tərəfindən törədilmiş günahlara görə narahatlığını bildirən məktubla müraciət etmişdi.

1991-ci ilin may ayında Almaniyanın Köln şəhərində Alman-Azərbaycan Cəmiyyətinin dəstəyi ilə keçirilən "Azərbaycan mədəniyyət həftəsi" müasir dövrümüzdə müstəqilliyə aparan yolda

Д-4660



Azərbaycan Milli Kitabxanası

danılmaz əhəmiyyət kəsb edirdi. Tədbir zamanı dalğalanan üçrəngli Azərbaycan bayrağı sanki müstəqilliyin müjdəçisi idi.

Məqalədən göründüyü kimi, XX əsrdə əsasən Almaniyada mühacir həyatı yaşayan azərbaycanlıların cümhuriyyət arzusu heç vaxt sönməmişdir.


**НЕМЕЦКАЯ МЕЧТА О ДЕМОКРАТИИ**
**Резюме**

100-летие образования Азербайджанской Демократической Республики, является объектом исследования объявившая о своей независимости в начале XX века. Освещая работу правительства, автор показывает одно из значимых направлений внутренней политики Азербайджанской Демократической Республики - отправление около 100 студентов на учёбу в Европу, что являлось важным вкладом в деле образования и просвещения. Обучаясь в Германии и в других странах Европы, эти студенты были носителями идей республиканства и свободы. Автор особо отметил целенаправленную деятельность представителей Азербайджанской интеллигенции на пути независимости и связал с современностью.



**DEMOCRATIC DREAMS IN GERMANY**
**Summary**

The 100 anniversary of formation of the Azerbaijan Democratic Republic, is object of research declared the independence at the beginning of the XX century. Lighting work of the government, the author shows one of the significant directions of domestic policy of the Azerbaijan Democratic Republic - departure about 100 students for study to Europe that was an important contribution in education. Being trained in Germany and in other countries of Europe, these students were carriers of ideas of a republican and freedom. The author especially noted purposeful activity of representatives of the Azerbaijani intellectuals on the way of independence and connected with the present.